Çərşənbə, 22 yanvar 1919-cu il, nömrə 94

# AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 19 rəbiülaxir sənə 1337. 22 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rubladir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Əbdülhüseyn bəy Hacıyev və Fərhad Ağazadə kamali-hüzn və təəssürlə [böyük hüzn və kədərlə] öz dost və aşnalarına xəbər verirlər ki, birincinin qızı və ikincisinin namizədi [nişanlısı] **Bikəxanım Hacıyev** bu rəbiülaxir ayının 18-ində vəfat et-mişdir. Cənazəsi rəbiülaxirin 19-da ça-harşənbə günü (22 kanuni-sani) saat 10-da Pozenovski küçədə 9 nömrəli evdən qaldırılaraq Çəmbərəkənd məscidinə həvalə olunacaqdır [aparılacaqdır].

*T-14*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Azərbaycan Məclisi-Məbusan sədri cənablarının əmrnamələri**

Əmrnamə nömrə 50

Azərbaycan Məclisi-Məbusan İdarəsi Təhrirat [məktub] xidmətçisi Rübabə xanım Tağızadə həmin 1919 sənəsi yanvarın 12-dən etibarən həman idarədə dəftərdar təyin edilir.

Əmrnamə nömrə 51

Azərbaycan Məclisi-Məbusan İdarəsi kvestor [təsərrüfat müdiri] Yusif bəy Ağabəyov həmin 1919 sənəsi yanvarın 21-dən etibarən 10 günlük məzuniyyətə buraxılır.

Əmrnamə nömrə 52

Azərbaycan Məclisi-Məbusan İdarəsi məzbətə mühərriri Hənəfi Zeynallı həmin 1919 sənəsi yanvarın 17-dən etibarən qulluqdan əzl [kənar] edilir.

Əmrnamə nömrə 53

Azərbaycan Məclisi-Məbusan İdarəsi məzbətə mühərriri [protokol katibi] Ələkbər Heydərzadə həmin 1919 sənəsi yanvarın 17-dən etibarən qulluqdan əzl [kənar] edilir.

Əmrnamə nömrə 54

Hacı İbrahim Qasımov həmin 1919 sənəsi yanvar ayının 19-dan etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsinə məzbətə mühərriri təyin edilir.

Əmrnamə nömrə 55

Azərbaycan Məclisi-Məbusan İdarəsi xidmətkarı Məhərrəm Qasımzadə həmin 1919 sənəsi yanvarın 20-dən etibarən bir həftəlik məzuniyyətə buraxılır.

Əmrnamə nömrə 56

Zəngan əhli Əli Salamzadə 1918 sənəsi dekabr ayının 1-dən Azərbaycan Məclisi-Məbusan İdarəsinə qapıçı təyin edilir.

Əmrnamə nömrə 57

Bakı əhli Hüseynqulu Yaqubzadə həmin 1919 sənəsi yanvarın 18-dən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsinə xidmətkar təyin edilir.

Əmrnamə nömrə 58

Daşdəmir Əlizadə həmin 1919 sənəsi yanvar ayının 17-dən etibarən Məclisi-Məbusan İdarəsində mülk nəzarətçisi müavinliyinə təyin edilir.

*Məclisi-Məbusan rəisi naminə rəis müavini Həsən bəy Ağayev*
*Surəti ilə müsavidir.*
*Kargüzar C. Paşazadə*

## ƏMƏLƏ MƏSƏLƏSİ

Əmələ [fəhlə] məsələsi yenə, demək olar ki, bütün şiddəti ilə Bakı əfkari-ümumiyyəsini [ictimai fikrini] işğal etməkdədir.

Əmələlərin halı həqiqətən də müşkül bir dərəcədədir. Aldıqları maaşlar yedikləri çörəyə çatmayır. İşsizlik, əmələni arvad-uşağı ilə bərabər aclığa məhkum edir. Başqa bir tərəfdən də Bakının keçirmiş olduğu hallar, düçar olduğu fəlakətli günlər, mədənləri, ticarəti, mədənçiləri də müşkül bir hala qoymuşdur. Bu üzdən böyük bir böhran hasil olmuşdur.

Azərbaycan Hökumətinin, Parlamanının məqsədi əmələlərin halını yaxşılaşdırmaqdır. Bu xüsusda Azərbaycan Məsai [Əmək] naziri əmələlərlə sahibkarlar arasında vaqe olan şurada əmələlərin tərəfini iltizam eyləmişdir. Əmələlər əmin ola bilərlər ki, zamanın imkanı dərəcəsində Hökumət həmişə əmələlərin haqlı tələblərini müdafiə edəcək. Hökumət eyni zamanda əmələlərə ucuz ərzaq yetirmək üçün tədbirlər görmək fikrini dəxi bəsləməkdədir.

Məlum işdir ki, əmələlərə artırılacaq məvacib bu günün ehtiyacı olan bahalığı rəf etmək [aradan qaldırmaq] üçün olmalıdır. Bunun üçün də Nəzarət [Nazirlik] subaylara 120, evlilərə 360 manat bahalıq xərci almağı tövsiyə edir. Əmələlər istərlərsə ki, bu təqsimat [bölgü] başqa cür olsun, taparlarsa [hesab edərlərsə] ki, subay-evlilik fərqi qoyulmasın, Hökumət bunu da nəzərə alar.

Həpimiz bilməliyiz ki, bu kimi zamanlarda, məmləkətin çətin və müşkül dəmlərində hər kəs vətən və millət naminə bir az fədakarlıq etməlidir.

Hökumət də əmələlərin haqlı tələbləri tərəfində olduqdan sonra məsələnin qolaylıqla həll edilməsini gözləməlidir [gözləmək lazımdır; gözləmək olar]. Bu gün əmələlər konfransa gəlməli, deməlidir, görək vaqe olan təklifə nə cür baxırlar? Yalnız bu baxışlarını söylərkən düşüncəli olmalı, tədbirlə hərəkət etməli, həqiqi mənfəətlə yalançı mənfəəti sezməlidir.

Məsai naziri deyir ki, yalnız məvacibin artması ilə məişət ucuzlandırılmaz. Doğrudur. İstəməlidir ki, məişətin ucuzlandırılması üçün Hökumət ciddi tədbirlər görsün.

Əmələ vətəndaşlar, bilməliyiz məmləkətin düçar olduğu bu halından, bu

yoxsulluq və aclıq bəlasından öz siyasi faydaları üçün mənfəət aparmaq istəyən partiyalar, axıntılar [cərəyanlar] vardır. Əmələnin həqiqi ehtiyacını rəf etmək istəyən axıntı ilə siyasət çevirən, politika qayıranları ayırd etməlidir.

Azərbaycanın bu qədər müşkülat içində olduğu böylə bir zamanda həll olunacaq məsələ, müşkülatsız həll oluna bilərsə, onu öyləcə həll etməlidir. Zabastovka bir tədbirdir ki, əmələlər son dəqiqədə müraciət etməlidirlər. "Bizim itirəcəyimiz artıq heç bir şey qalmadı" deyirlər. Böylə deyənlər doğru söyləməyirlər. Biz heç bir hesab və mülahizələri nəzərə almadan gözümüzü yumub hərəkət edərsək, əziz tutduğumuz istiqlalımıza, yeni bərkişməkdə olan hökumətimizə zərbələr vura biləriz.

Bunun üçün, əmələ vətəndaşlar, sərvaxt [gözüaçıq] olalım. Biləlim ki, Hökumət əmələ mənafeyinə zidd bir hökumət deyildir. Haqlı və mötədil tələblərinizin qəbul edilməsi üçün Azərbaycan Parlamanı da, Hökuməti də var qüvvətlərini sərf edərlər.

Bu gün əmələ konfransı toplanacaq, bu məsələni həll edəcək. Gəliniz, nöqteyi-nəzərinizi söyləyiniz. Göstəriniz ki, siz maddi ehtiyacınızı müdafiə edərkən, sizin bu ehtiyacınızdan istifadə edərək "politikaçı"lara macərapərəstlik imkanı verməzsiniz.

*M. Ə.*

## ŞƏMKİR ŞÜHƏDASINI XATIRLAYALIM

Yeni üsul ilə kanuni-saninin [yanvarın] 22-si, əski üsul ilə yanvarın 9-u!

Azərbaycan istiqlalı tarixinin ən birinci səhifələrini işıqladacaq, həm də günəş kimi parladacaq bir gün!

Azərbaycan türklərinin əsla unuda bilməyəcəkləri bir gün!

Bu gündə, ərsəyə gələcək azad və müstəqil Azərbaycanın qüvayi-əsgəriyyəsinin [hərbi qüvvələrinin] ləvazimati-hərbiyyəsi tədarükatına [hərbi ləvazimat tədarükünə] başlanıldı. Həm də qövlən [sözdə] deyil, feilən [işdə] başlanıldı. Qəhrəmanlıqlar göstərməklə, qanlar tökməklə və qurbanlar verməklə başlanıldı!

Həmin bu günlərdə idi ki, Kutaisdə, Tiflisdə, Qarsda, Gümrüdə, İrəvanda və başqa yerdəki cəbbəxanalarda mövcud olan ləvazimati-hərbiyyələri əllərinə aldıqdan sonra, cəbhədən ricət edən [qayıdan] qitəati-əsgəriyyənin [hərbi hissələrin] ən mülayimlərinin, ləvazimati-hərbiyyəni buraxaraq, sənələrcə didarına [üzünə] həsrət qaldıqları ailələrinə qovuşmaq arzu və iştiyaqında [istəyində] olanlarının ləvazimati-hərbiyyələrini təslim alan qonşularımız; həman qitəati-əsgəriyyənin pək sərt, ən cəngi [döyüşkən], əsla silahından ayrılmaq istəməyən bir neçə qafiləsinin ləvazimati-hərbiyyələrini bizim hissəmizədd [hesab] edərək təslim almağı Azərbaycanlılara mühəvvəl etmişdilər [tapşırmışdılar]!

Olsun... Hər vaxt hər bir işdə qonşuları ilə hüsn-müamilədə [yaxşı rəftarda] bulunmağa [çalışan], ixtilaf və nizaya [çəkişməyə] meyl və məhəbbəti olmayan Azərbaycan türkləri sadədilanə [sadəlövh] olaraq bu təqsimə [bölgüyə], bu əmri icraya dəxi razı oldular. Bunun üçün də Şəmkir istasyonu vasitəsilə Gəncəyə tərəf gəlməkdə olan qitəati-əsgəriyyə ilə

müxabirəyə girişdilər [əlaqə saxladılar]. Qitəati-əsgəriyyənin ən ciddi və qəti imtina cavabını alan gəncəlilər, knyaz Abxazinin zirehli qatarı ilə Şəmkir istasyonuna yola düşdü. Sonra adi trenlər ilə mücəhhəz [təchiz edilmiş], müntəzəm [nizami] qitəati-əsgəriyyə qarşısına fəqət [sadəcə] tüfəng və revolverdən başqa silaha malik olmayan mübarizlər peydərpey [dalbadal] göndərilməyə davam etməkdə idi. Gedənlərin arasında məşhur gəncəli insan və qeyrət müməyyizi bir şəxsin mehrinə layiq olanlar var isə də, həqiqi millət və vətən qəhrəmanları dəxi pək çox idi.

Həman qəhrəmanların başında miralay [polkovnik] həzrətləri ilə bərabər, onun təhti-komandasındakı [komandası altındakı] cavanlardan və "Yaşıl qvardiya" təsmiyə edilən [adlanan] qəhrəmanlar dəxi ilələbəd unudulammaz və unudulmayacaqlar.

Əski üsul ilə kanuni-saninin [yanvarın] 9-cu günü, saat 10 radələrində qitəati-əsgəriyyə ilə Şəmkir istasyonunun qərb tərəfində 100-150 çağırımlıq bir məsafədə pişəzvəqt [qabaqcadan] tədarük edilmiş sipərlər önündə qarşı-qarşıya gəlib vəziyyəti-hərb alınaraq sonuncu dəfə olmaq üçün bir daha müxabirəyə başlanıldı. Qitəati-əsgəriyyənin müqəddimətülceyşi [öncü qüvvələri] məqamında olan ön sıradakı trenlər, tərəfi-müqabili hərbə mühəyya [hazır] və hərb edəcəklərini qəti surətdə qərara almış gördükdə, ləvazimati-hərbiyyələrini təslimə qərar verdilər. Təslim başlanıldı. Silahları təslim alan knyaz Abxazinin zirehli qatarında və ən birinci sipərin önündə duran, başlarında komandanları olmaq üzrə məsum və özləri kimi gənc, yeniyetmə "Yaşıl qvardiya" idi.

Birinci, ikinci və üçüncü trenlərin əslihələri [silahları] təslim alınaraq zirehli qatara toplanıldı. Trenlər salamat ötürüldü.

Dördüncü, beşinci və altıncı trenlər yetişdilər. Bunlar əvvəlcə əslihələrini təslimə razı olmayaraq müharibə başladılar. Bir az tələfat verməməksizin müharibə etdikdən sonra tərəfi-müqabili əzmində sabit, qüvvətli və həm də zirehli qatarı görərək təslim işarəsi olan ağ bayraqlarını qaldırdılar. Həman saat bunlara aman və əslihələrini təslim üçün zirehli qatarın yanına gəlməyə yol verildi. Məgər bunların ağ bayraq qaldırışı bir müharibə hiyləsindən ibarət imiş. Zira zirehli qatarın bərabərində öz planları mövcibincə [planlarına əsasən] durduqda zirehli qatar lokomotivinin çarxını top qumbarası ilə hədəfə alan kimi topun dəhşətli partıldısı ilə bərabər lokomotivdən məhrum olan zirehli qatar iki parçaya təqsim edilərək [bölünərək] həm-digərindən aralandı. Tam bu sırada idi ki, yeddinci, səkkizinci, doqquz, on və on birinci trenlər dəxi arxadan yetişərək qəflətən şiddətli və dəhşətli müharibəyə başladılar. Topların, pulemyotların, əl bombalarının və tüfənglərin cəhənnəmnümun [cəhənnəmi andıran] atəşlərindən Şəmkir səhrası titrəməyə başladı. Azərbaycan-türk qəhrəmanları əsla etidallarını pozmayaraq və özlərini itirməyərək filfövr [dərhal] sipərlərdə saxlanaraq yalnız bir tüfənglə bu qədər top, pulemyot, əl bombaları və tüfənglə mücəhhəz 8 tren dolusu müntəzəm bir qüvveyi-əsgəriyyə ilə müharibəyə davam etdi.

Öylədən [günortadan] təxminən 5 saat keçmişdən gecənin yarısı keçənədək müharibə tam şiddət və dəhşətini artırmaqda idi. Gecə yarıdan sonra qələbə işarələri hər bir tərəfdən verilməyə başladı. Qalib gələn Azərbaycan-türk qəhrəmanları bütün qüvveyi-əsgəriyyənin ləvazimati-hərbiyyələrini [əsgərlərin hərbi sursatlarını] təslim deyil, iğtinam etdilər [qənimət aldılar]. Fəqət, eyni vaxtda kəndlərdən gələrək ətrafda saxlanıb fürsət bəkləyən bir para namussuzlar, tüfənglərdən və qeyri şeylərdən çoxunu qarğaşalıqdan istifadə edərək qaçırdılar. Ertəsi günü sübh tezdən miralay [polkovnik] bəy cənabları düşdükdə əzilən qolunu ağ məndil ilə döşündən asmış olduğu halda və doktorla bərabər, təşkil ediləcək müstəqil Azərbaycan qüvayi-əsgəriyyəsi [ordusu] üçün tədarük edilən topları, pulemyotları və sair qənimətləri toplamaqda və Gəncə istasyonundan şəhərə göndərməkdə idi. Tülu etməkdə [doğmaqda] olan günəş dəxi Şəmkir şühədası Gəncə Zükur edadisinin [Gəncə Oğlanlar gimnaziyasının] 8-ci sinif mütəallimi [şagirdi] Məhəmməd Rəfiyev, 7-ci sinif mütəallimi İsfəndiyar Quluzadə və Gəncə Ali-ibtidai məktəbinin son sinfi mütəallimi Yaqub Mehdiyevin qəhrəmanlıq, fədakarlıq və şəhadətlərinə şəhadət [şəhid olmaqlarına şahidlik] etməkdə idi. Bəli, bu müharibədə məcruhlardan [yaralılardan] başqa mədəniyyət və maarif bağçasında yeni açılmaqda olan üç dənə çiçək şəhid verdik. Rəhmətullahi əleyhim rəhmətən vasia!

Şəmkir ordusu Gəncəyə övdət etdi [qayıtdı]. Qalib qəhrəmanlar vəsfə gəlməyən bir təntənə və şəşəə [dəbdəbə] ilə şəhərə girdilər. Şühədanın cənazələri cümləni [hamını] ağlatmaqda idi. O vaxtın hökuməti və bu müharibənin baş ərkani-hərbi [qərargahı] olan Gəncə Milli Komitəsi iğtinam edilən qənimətləri təhvil götürdü. Qəhrəmanları, fədakarları təqdir etdi, oxşadı, şühədanın ibkayinamları [adlarını əbədiləşdirmək] üçün vəsilələr aramağa iclaslar qurdu, şuralar etdi. Bir çox qərarlar məzbətələrə [protokollara] yazıldı. Lakin məəttəəssüf [təəssüf ki], başqa qərarlar kimi bu qərarlardan dəxi məzbətələrdə yazılan bir neçə quru sətirlə, bir də bəzi aid olan mövqelərə göndərilən bir neçə övraqi-rəsmiyyədən [rəsmi sənəddən] başqa meydana bir şey çıxarılmadı. Əgər həman hökumətin xələfi olan indiki müstəqil və azad Azərbaycan Hökuməti həmən övraqı, məzbətələri bir daha mütaliə edərək o qərarları qövldən feilə [sözdən işə] gətirərsə, heç şübhə yoxdur, vəzifələrindən birini, daha doğrusu ən birincisini, əmələ gətirmiş olar. Bizlər isə bu gün vətənin, millətin, istiqlalın ən birinci qurbanı olan şühədanı birinci səneyi-dövriyyələri [il dönümləri] münasibətilə xatırlayaraq ruhi-pürfütuhlarına [fateh, qalib ruhlarına] "Fatihə" oxuyalım. O[n]ların məsum və müqəddəs ruhlarına xitabən: "Ey istiqlalımızın birinci qurbanları, əmin olunuz! Sizi tarixin parlaq və münəvvər səhifələri iləlebəd [əbədiyyən] unutmadığı kimi, bizlər dəxi unuda bilmərız!" - deyə sözümüzü bitirəlim.

*Səid*

## FAMİLİYALARIMIZ

Keçmiş məqalələrin birində adlarımızın pozğunluğu və bunun islahı barəsində bəzi mülahizatımı [mülahizələrimi] yaz-

mışdım. Bu dəfə familiyalar pozğunluğuna dair təsəvvüratımı oxuculara təqdim etmək istərdim.

Bizcə xanədan, sülalə, dudman [nəsil] kəlmələrinin mənasını ifadə edən familiya ləfzini Qafqaz müsəlmanları ruslardan öyrənmişlərdir. Ruslar babalarının adlarına "ov", "yev", "iski" kimi ədatların artırılması ilə özlərinə familiya yaparlar. Rus lisanına müxtəs [məxsus] olan bu ədatları Qafqaz müsəlmanları dəxi tamamilə qəbul edərək "rusvari" familiyalarla özlərini ruslara tanıtmaq istəmişlərdir. Tarix də bunu sübut edir ki, avam millətin xəvas [seçilmiş, üstün] millətə yaxınlaşmaq şəraiti [şərtləri] təqlidçilik və zahiri formaların qəbulu ilə başlanır. Lakin Qafqaz millətlərindən rus ədatları ilə familiya istemalına [işlətməyə] ancaq müsəlmanlar mürtəkib olmuşlardır [qurşanmışlar]. Bundan görünən budur ki, ruslar Qafqaza soxulduqları zamanlarda Azərbaycan türkləri hamıdan avam olduqları cəhətinə, hamıdan da qabaq rusvari familiya qullanışına məhəbbət göstərmişlərdir. Məsələnin bu cəhəti inkar olunammayacaq bir həqiqətdirsə də, bununla bərabər, burası da mühəqqəqdir [qətidir] ki, Qafqaz müsəlmanları, sairləri kimi dərin bir milli hiss və əfkara malik olmadıqları üçün hamıdan qabaq rusların qucaqlarına atılmaq istədilər. Bu vaxtlar qonşularımızın milli hiss və təəssübləri bir dərəcədə kəskin idi ki, rus qoşununu Qafqaza dəvət edən gürcülər, xanlıqları yıxmaq üçün casus və bələdlik edən ermənilər əsla rusvari familiya daşımağa razı olmadılar. Gürcülər gürcü lisanına məxsus "şvili" və "dze" kimi ədatları familiyalarına qoşaraq Ramişvili və Çxeidze kimi gürcü familiyaları daşıdıqları kimi, ermənilər də özlərinə məxsus ədatları olmadığı cəhətə rusların "ov", "yev"ləri əvəzində qədim iranilərin "yan" ədatını qəbul etdilər. (Məlum olduğu üzrə, iranilər dudman və sülalələrini "yan" ədatı ilə bəyan edirdilər. Məsələn, Pişdadiyan, Sasaniyan, Keyanyan sülaləri kimi.)

Ermənilər ilk qədəmlərini həmin "yan" ədatının qəbulu, yaxud davamı ilə sübut etdilər. Krımov, Petrosov, Ovanesov kimi rusvari familiyalar əvəzinə Krımyan, Petrosyan, Ovanesyan kimi farsvari familiyalar qullandılar. Sairlərin təəssübimillisi [milli təəssübkeşliyi] bu dərəcədə şiddət edərkən, müsəlmanların nücəba [əsilzadələri] və ürəfası, bəlkə baş ruhaniləri, şeyxulislam və müftiləri dəxi Tahirov, Qayıbov kimi familiyalarını ruslaşdırmağa çalışmışlardır.

Bəzən bu ruslaşdırmaq yalnız ədatın qəbulu ilə olmayaraq, maddeyi-əsliyyələri [əsl maddəsi, kökü] bir dərəcəyə qədər pozulmuşdur. Hürufatı [hərfləri] öylə təğyir tapmışdır [dəyişmişdir] ki, bunların, bu ruslaşma familiyalarının müsəlman əhlinə təəllüqü [aidiyyatı] sair islam məmləkətlərində iqrar və bəlli olunmazdı. Məsələn, heç bir İstanbul türkü anlaya bilməz ki, bizim familyamız "Qadjinski" (yəni Hacızadə), ərəblərin Hacı kəlməsindən münhərif olmuşdur [təhrif edilmişdir]. Yaxud heç bir ərəb müvərrixi [tarixçisi] bunu sübut edə bilməz ki, bizim "Usmiyev" familiyamız Dağıstana göndərilmiş "İsmi" adlı ərəb sərkərdəsinin namından məxuzdur [adından əxz edilmişdir, alınmışdır].

Qafqazda birinci dəfə rusca familiya

daşımağa qurşananlarımız xanlar və bəylər olmuşlardır. Xanlığını və bəyliyini sübut etmək üçün bu ləfzləri, hətta familiyalarına da daxil etmişlərdir. Məsələn, Ziyadxanov, Bakıxanov, Şəkixanov, Fətəlibəyov, Rüstəmbəyov və sairləri kimi. Məəlməmnun[iyyə] [məmnuniyyət verici bir haldır ki], Qarabağ xanzadələri içində "ov" ədatından qaçaraq öz qaydamıza tabe olanlar da olubdur. Məsələn, Cavanşir. Xanlardan və bəylərdən sonra familiya daşımaq adəti tüccar və sair əsnaf əhlinə keçir. Lakin, bunların rəhbərləri familiyalar içində nəcabətlərini sübuta qalxmış xanlar və bəylər olduğu cəhətinə əsnafdan heç kəs sinfi, yaxud demokratik tərzində familiya daşımağa məəttəəssüf [təəssüf ki], nail olammayır. Bu gün ermənilərin Qundaqsazyan, Çaxmaqsazyan, Saatsazyan, Zərgəryan kimi sinfi familiyalarına rast gəldiyimiz halda, müsəlman əsnafının familiyalarında bu üsula həqarət nəzəri ilə baxmalarını müşahidə ediriz. Bunlar yalnız babalarının adları ilə familiya daşıyırlar. Doğrudur, aramızda Topçubaşov, Qatırçıbaşov kimi bəzi zahirən sinfi familiyalara rast gəliriz. Lakin bu familiyalar sinfi deyil, bəlkə köhnə islam hökumətlərindən qalma mənsəblərdir.

Xülasə, familiyalarımızda demokratlığa, kəsbkarlığa fəxr edici bir əlamət görünməyir. Hələ İran nüfuzu altında bulunduğumuz vaxtlar ürəfadan bəziləri "Qarabaği", "Gəncəvi", "Şirvani" kimi mahal familiyalarını qəbul etmişlərdir. Sonra, türklük hissi qələbə edir, yaxud bu İran formasına bir çox yerlərimizin adları uyğun olmadığı cəhətinə yayi-nisbi (y) atılıb, əvəzinə türk ədatı "li" qonulur. Böylə ki, Köçərli, Şahtaxtlı, Cuvarlı, Qaracalı, Sarıcalı kimi bir çox familiyalar zühur edir. Lakin, türkün "li" ədatı ilə kifayətlənməyən bir çox cavanlarımız bunun üzərinə bir də rus ədatı "nski" əlavə edirlər. Hər iki ədatın mənası bir yer və məkana aid olduğu üçün familiyalarımız da adlarımız kimi ikimərtəbəli və gülünc bir hala düşürlər. Bunun nəticəsi olaraq Ərəblinski, Şıxlinski kimi bir çox ikimərtəbəli, yaxud iki ədatlı familiyalarımız meydana gəlir.

İştə, rus ədatları "ov", "yev", "ski", "nski" familiyalarımızda möhkəmləşdiyi bir zamanda, bunun ziddinə olaraq bəzi ruhanilərin bu barədə cəsarəti, ciddü cəhdi müşahidə olunur. Böylə ki, bunlardan bir neçəsi rus ədatlarını rədd edib, əvəzinə farsın "zadə" kəlməsini işlətmişlərdir. Hüseynzadə, Axundzadə və Əfəndizadə cənabları bu təşəbbüsatın dəstəbaşılarıdır.

Getdikcə, müruri-zamanla [vaxt keçdikcə] "zadə" ilə qullanılan familiyalarımız artırdı. Lakin bu "zadə" ədatlı familiyalar yeniyetmələrin təvəllüdnamələrində yenə "ov", "yev" ədatlarına mübəddəl olunaraq [dəyişdirilərək] rus idarələrində köhnə qayda ilə, yalnız müsəlman mətbuatında təzə qayda ilə işlənirdi. Ruslar yanında "ov" və müsəlman xeyirşərində "zadə" ilə familiya daşıyanlar bu "ikiüzlülüyə" təvəllüdnamə cəhətindən məcbur olmuşdular. Qüsurumu boynuma alıram ki, mənim də familiyam təvəllüdnamə cəhətincə rus idarələrində Ağayev və müsəlman mətbuatında da Ağazadə qalıb getmişdir və mənim kimiləri də əlan [indi] çoxdur.

Bu gün təvəllüdnamə vermək ixtiyarı

öz əlimizdə olduğu üçün əminəm ki, daha bundan sonra idareyi-ruhaniyyələrimiz təvəllüdnamələrimizdə “ov”, “yev” quyruqlu familiyalar yazmasınlar. Bizim kimi köhnələrə gəldikdə, bizim də vəzifəmiz – rus idarələrinə ehtiyacımız qalmadığı cəhətinə familiyalarımızın ancaq müsəlman səpkisində olmasına riayə[t] edəriz. Lakin bununla məsələ həll olunub qurtarmayır.

Məktəblərin və sair idarələrin milliləşməyi barəsində tədbirlər ittixaz olunur [tədbirlər görülür]. Familiya islahı milliləşmənin ən asan bir tərəfidir ki, burada bir layihə tərtibindən başqa sair bir səy və kuşişə [çalışmağa] ehtiyacı yoxdur.

Familiya islahına gəldikdə, burada bəzi zəvatın [şəxslərin] Cavanşir kimi mücərrəd və ədatsız familiya qəbulu, bəzilərin də “li” ədatı ilə və bəzilərin də “zadə” kəlməsilə familiya daşımaqlarını tövsiyə ediriz. Əshabi-xibrənin [mütəxəssislərin] bu barədə daha sair məlumatı varsa buyursunlar, yazıb xəbər versinlər. Bəlkə familiya islahatı müntəzəm bir surətdə qəbul oluna.

Tarix bunu bizə sübut edir ki, hər bir millətin islahatı xırda və zahiri işlərdən başlanmışdır. İştə, Parlaman və Heyəti-Vüzəra [Nazirlər Kabineti] əzalarından [üzvlərindən] başlayaraq, axırıncı şagirdlərimizə qədər hamı familiyasını gərək islah etsin, milliləşdirsin. Bunu əncama gətirmək üçün bir layihəyə, bir qanuna ehtiyacımız vardır ki, bu da Ədyan [Dini Etiqad] və Maarif Nəzarətləri tərəfindən təşkil ediləcək bir komisyonun işidir.

*Fərhad Ağazadə*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Royter acentəliyindən)*

**Sülh Konfransının güşadı [açılışı]**

Şənbə günü Parisdə tarixi Sülh Konfransı açılmışdır. Fransa Rəisi-cümhuru [Prezidenti] Puankare öz nitqi əsnasında demişdir ki, Sülh Konfransının ancaq Parisdə dəvət edilməsi, müharibədə hamıdan artıq xəsarətdidə olan [zərər çəkən] məmləkətimizə millətlərin göstərmiş olduqları hörmətdən ibarətdir.

Puankare İngiltərəni və İngiltərənin muxtariyyətli müstəmləkələrini hamı millətlərin müqəddaratına dəxli olan müharibədə iştirak etdiklərinə görə təqdir etmişdir. Amerikanın müharibəyə müdaxilə etməsi böyük bir siyasi, əsgəri [hərbi] hadisədən də yüksək olub, millətlər vicdanının hökmi-alisi və tarix məhkəməsində millətlər hakəmlərinin [arbitrlərinin] qərarından ibarət idi. Bu böyük müharibədə iştirak edib gələcək sülhün möhkəm və təminatlı olması üçün üsrət [əziyyət] çəkən millətlərin və adamların adı daimi bir şöhrət altında olacaqdır.

Sülh Konfransının təşkilatı məsələsinə gəldikdə, xəbər verirlər ki, ümumi mənafe üzrə müharibə edən Amerika, İngiltərə, Fransa, İtaliya və Yaponiya nümayəndələri Sülh Konfransının hamı müşavirələrində iştirak edəcəklərdir. Xüsusi mənafe üzərinə müharibə edən və bərbad bir halda olan dövlətlərdən Belçika, Braziliya və qeyrilər Sülh Konfransında onlara dəxli olan məsələlər müzakirə edildiyi zaman iştirak edəcəklərdir. Bitərəf dövlətlər çağırıldıqları zaman istima ediləcəklərdir [dinləniləcəklərdir].

*(Royter acentəliyindən)*

**Berlində**

Berlindən xəbərə verirlər ki, hökumət Berlində qüvvətli bir qarnizon təşkil etməkdədir. Bu qarnizon təzə hərbi ixtiraatlar [ixtiralar] ilə təchiz edilmişdir.

**Donanmalar**

Amerika Donanma Şurası izhar etmişdir ki, müharibə ehtiyacatı üçün həcz [müsadirə] edilən hamı Amerika gəmiləri təviz [kompensasiya, əvəz] edildikləri zaman azad ediləcəklərdir.

**Bolşeviklərin məğlubiyyəti**

London - Dekabrın 24-ündə rus qoşunları Perm şəhərini işğal etdilər. Bolşeviklərdən 8 min nəfər əsir və bir çox ləvazimi-hərbiyyə [hərbi sursat] qənimət alınmışdır. Perm ilə Kunqur arasında olan düşmən ordusu Permin 50 ağaclığında birbirindən əlaqələri kəsilmişdir.

* Kopenhaq - Teleqrafla xəbər verilir ki, bugünlərdə Paderevski başda olmaq üzrə Polyak Cümhuriyyəti təşkil ediləcəkdir. Paderevski Poznandan Dansiqə varid olmuşdur [getmişdir].

* Batumdan Bakıyadək olan dəmiryolları hal-hazırda qaydaya düşmüşdür.

* Sibirdə, Ural xəttində böyük bir müvəffəqiyyət hasil olmuşdur. Permdə bolşeviklərin mükəmməl bir alayı əsir düşüb düşmənin ərkani-hərbi [qərargahı] ilə briqadası dəxi əsirlər cümləsindədir. Kumanın cənub cəhətində bolşeviklərdən alınan əsirlərin yekunu 30 minədəkdir. 51 top, 1000 pulemyot, bir neçə zirehli gəmi və bir çox dəmiryol ləvazimatı qənimət alınmışdır.

Voronej - Xətti-hərbdə ciddi müharibələr başlandığı üçün Novoçerkasskda Səlibi-əhmər [Qırmızı xaç] dəstələri təşkil edilir.

Soçi - General Denikin zeyldəki [aşağıdakı] əmrnaməni sadir eyləmişdir [yaymışdır]: *"Don-Kuban atamanlarının rizası ilə dekabrın 26-dan etibarən mən cənub Rusiyada olan bərri və bəhri qüvvələrin [quru və dəniz qüvvələrinin] baş komandanlığını öhdəmə almışam."*

**QƏZETƏLƏRDƏN**

Helsinqfors - 8 yanvar. Petroqraddan qayıtmış olan Danimark[a] səfarət üzvləri xəbər verirlər ki, Moskvada olan ingilis hərbiyyə nəfəratı [əsgərləri] həbsxanada saxlanırlar və bunlarla bolşeviklər fəna müamilə [pis rəftar] edirlər. Əks-inqilabçılarla mübarizə edən heyət başçısı xanım Yakovlev bütün - bütünə Petroqrada hökmranlıq edir. Hər gün insanlar küçələrdə qırılırlar. Petroqrad əhalisi 800 minədək əskilmişdir. Mağazaların 4-dən 3 hissəsi qapanmışdır. Tramvaylar işləmir. Kömür yoxdur, elektrik həftədə fəqət 2 saat işləyir. Petroqradda Krasnı qvardiya nəfəratının [Qırmızı qvardiya əsgərlərinin] miqdarı 50 min nəfərdir.

**Ermənilərin müharibəyə qarşı protestosu**

Siqnax mahalında Kakabeti kəndində yaşayan ermənilər gürcü Daxiliyyə vəzirinə [nazirinə] teleqramla müraciət edərək erməni hökumətinin Sanain macəraculuğuna [avantürasına] qarşı protesto etmişlərdir. Bunlar Gürcüstan istiqlaliy-

yəti yolunda hər növ fədakarlığa hazırlandıqlarını bildirmiş və demişlər ki, bunu Ararat Hökuməti bilməlidir ki, Kakabeti ermənilərinin onlarla heç bir əlaqəsi yoxdur. Biz Gürcüstanda doğulduğumuzdan canımızla, ruhumuzla gürcüyüz.

**İngilislər dəmiryollarında**

Tiflis, Poti, Batum arasında olan tunellərin mühafizəsini ingilis heyəti kəndi öhdəsinə almışdır. Oraya mühafizədən ötrü hələlik bir tabor sipahi göndərilmişdir. Ondan əlavə, Supsa mövqifində [stansiyasında] bir bölük hind qoşunları qoyulmuşdur. Mühafizəyə məmur edilən saldatlar üçün general-qubernator qışlalar [kazarmalar] hazırlayıb oraya ərzaq şeyləri də göndərir.

**Gürcüstanın ingilislərə cavabı**

Tiflis - 18 yanvar. İstanbuldan, ingilis komandanlığından gəlmiş olan teleqramı Xariciyyə naziri Gegeçkori elan etdikdən sonra gürcü Parlaman sədri, Parlamanın vəkaləti ilə ingilis heyəti rəisinə və Zaqafqaziyada olan ingilis qoşunları baş komandanı general Forester-Volkerə zeyldəki [aşağıdakı] nitq ilə təşəkküratda bulunmuşdur:

*"Gürcüstan Parlamanı sizin şəxsinizdə azadlıq sevən ingilis millətini ciddiyyən təbrik edir. Gürcü milləti həmişə inanırdı ki, bu azadlığın mehdi [beşiyi] olan İngiltərə bizim vətənimizə müqtədir dostumuz sifəti ilə gəlib çoxdan bəri müsibət çəkməkdə olan gürcü millətinin milli ordularının vücuda gəlməsinə müavinət [kömək] edəcəkdir. Bu sözümüzə sübutumuz da vardır. Bu gün bizə sizin hökumətiniz tərəfindən gələn məlumat, İngiltərə hökumətinin gürcü istiqlaliyyətinə mail olduğunu və Ümumi Sülh Konfransında bunun təsdiq edilməsinə çalışacağını bildirir. Biz, möhtərəm general, sizdən təvəqqe ediriz! Hökumətinizə bildiriniz ki, bu hərəkəti ilə bütün Gürcüstanı ingilislərdən minnətdar eyləmişdir. Hər bir gürcü vətəndaşının qəlbi bilir ki, istiqlal yolunda etdiyi mübarizədə ingilis kimi müqtədir bir dostu var ki, gürcü millətinin mədəni millətlər cərgəsinə girmək mübarizəsində ona kömək edir."*

**Rusiyada**

* Kursk quberniyasındakı fövqəladə şura, ictimai qərar qoymuşdur ki, bütün Kursk xətti-hərbində Müttəfiqlər və Könüllü qoşunlara qarşı müharibə açılsın.

* Urazovodan qaçmış olanlar "Yujnı kray" qəzetəsinə xəbər verirlər ki, piyan [sərxoş] bolşevik saldatları Utkin nam [adlı] bir tacirin evinə od vurmuşlardır. Bu yanğın, sonra başqa yerlərə keçib tam 130 evi məhv eyləmişdir. Küçələrdə yığılmamış meyitlər qalmaqdadır.

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

* Maliyyə naziri həzrətlərinin Bələdiyyə İdarəsinə borc pul vermək haqqındakı məruzəsini istima etdikdən [dinlədikdən] sonra qət edilmişdir [qərara alınmışdır]:

Bələdiyyə İdarəsinə 5 faizlə bir il müddətinə 3 milyon rublə pul verilsin.

* Maliyyə naziri həzrətlərinin neft və neft məhsulatına aksiz təyin etmək haqqındakı məruzəsini eşitdikdən sonra qət

edilmişdir:

Maliyyə nazirinə tapşırılsın ki, Hökumətin 21 oktyabr 1918-ci sənə qanununun təcili surətdə qövldən feilə [sözdən işə] gətirilməsinə çalışsın. Neftə və neft məhsulatına aksiz təyini barəsində lazımi binagüzarlıqda bulunsun [addımları atsın].

* Maliyyə naziri həzrətlərinin neftə taksa təyin etmək barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Hökumətin 9 oktyabrdakı qətnaməsinə əlavə olaraq, neftin putuna 5 rublə, cövhərin putuna 7 rublə taksa təyin edilsin. Neftə 3 rublə, cövhərə 5 rublə aksiz, benzin və başqa yüngül yağlara 7 rublə aksiz təyin edilsin.

* Hərbiyyə naziri həzrətləri[nin] külfətin yeganə müinini [köməkçisini; baxıçısını] və xalq məktəbləri müəllimlərini əsgərliyə alma[ma]q barəsindəki məruzəsini istima etdikdən sonra qət edilmişdir:

Külfətin yeganə müini və xalq müəllimlərini əsgərliyə almamaq barəsindəki məruzə təsvib [təsdiq] edilsin.

* Hərbiyyə naziri həzrətlərinin topçu üsuli-təliminin tərcüməsi haqqındakı məruzəsi istima və təsdiq edilmişdir.

* Hərbiyyə naziri həzrətlərinin məruzəsinə görə Azərbaycan qolordusu ərkani-hərbinin [qərargahının] ləğv edilməsi qərarlaşdırılmışdır.

* Daxiliyyə naziri həzrətlərinin Zəngəzur qəzasındakı səfərbərliyi təcil etmək [təxirə salmaq] barəsindəki məruzəsini istima etdikdən sonra qət edilmişdir:

Fövqəladə vaxtdan dolayı Zəngəzur qəzasındakı səfərbərliyi müvəqqəti olaraq təcil etmək [təxirə salmaq].

*18 yanvar 1919 sənə*

* Post ve Teleqraf naziri həzrətlərinin beynəlbilad [şəhərlər arası] telefondan istifadə etmək barəsindəki məruzəsi nəticəsində qət edilmişdir:

Nazir və nazir müavinləri beynəlbilad telefon xəttindən məccani [pulsuz] olaraq istifadə edəcəklər.

## BAKI XƏBƏRLƏRİ

**Bələdiyyə İdarəsinin qətnaməsi**

Şəhərdə hökmfərma olan [hökm sürən] müsri [yoluxucu] xəstəliklər barəsində Bələdiyyə rəisinin məruzəsini dinlədikdən sonra bir İcraiyyə komisyonu intixab edilmişdir [seçilmişdir] ki, komitənin bütün qətnamələrinin qövldən feilə [sözdən işə] gətirilməsinə çalışsın. İşbu komisyona Bələdiyyə İdarəsi tərəfindən idarə üzvü doktor [Mustafa Ağa] Şərifov intixab edilmişdir. Doktor Şərifov bütün komisyona aid işləri idarə etməklə 600 yataqlıq bir xəstəxana açılmasına lazımi binagüzarlıqda [təşəbbüsdə] bulunacaq. Bütün iş Bələdiyyə rəisinə həvalə ediləcəkdir.

* Bələdiyyə İdarəsi üzvü doktor [Mustafa Ağa] Şərifov, Bələdiyyə İdarəsinin şəhər dərmanxanalarında saat 2-dən 8-ə qədər xidmətçilər təyin etmək barəsində məruzə oxuyur. Məruzədə denilir ki, işbu məsələni qövldən feilə [sözdən işə] gətirmək mümkün deyildir. Zira şəhərdə müsri xəstəliklərdən naşi [yoluxucu xəstəliklər səbəbindən] bütün həkimlər məşğuldurlar. Bir də şəhər dərmanxanaları xidmətçiləri Bələdiyyə İdarəsinə müraciətən rica etmişlər ki, yeni xidmətçilər qəbul edilməsin. Bunun əvəzində

onlar növbə ilə çalışacaqlar. Bunun əvəzində 30 faiz deyil, məvacıblərinin yarısını alacaqlar.

Bələdiyyə İdarəsi məruzədən sonra qət etmişlər ki, əsas etibarı ilə işbu məsələ qəbul ediləmməz. Fəqət, əhvali-fövqəladədən naşi [fövqəladə vəziyyətə görə] qət edilmişdir ki, şəhərin 8 dərmanxanalarına birər xidmətçi qəbul edilsin. Bunların cümləsinə aylıq olaraq 6 min 400 rublə təyin edilsin. Bunlar günortadan sonra çalışacaqlar. Bu şərtlə ki, nə vaxt işsiz xidmətçilər olarsa, onlar dəyişiləcəklər.

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Maliyyə Nəzarəti ilə etilafa [razılığa] gəlmişdir ki, ümumi tamaşaxanalar üçün xüsusi biletlər hazırlansın. Biletlər xüsusi kontrol [müfəttiş] təhti-nəzarətində [nəzarəti altında] hazırlanacaqdır.

* İkinci uçastok ev komitəsi hamı ev komitələrinə təklif edir ki, tif azarına mübtəla olan xəstələri uçastok komitəsinə xəbər versinlər. (Adres: Bolşoy Krepostnoy, nömrə 47, telefon 10-37.) Burada hər gün səhər saat 9-dan axşam saat 6-ya qədər növbəti həkim vardır. Həkim azarlılara pulsuz baxır. Biçiz [yoxsul] azarlılara dərmanlar müftə verilir.

## ƏRZAQ İŞLƏRİ

“Müsavat” firqəsinin fəhlə şöbəsi, Ərzaq Nəzarətinin mədən və zavod şöbəsinə böylə bir məktub yazmışdır:

Mədən dairələrində Ərzaq Nəzarətinin anbarlarından buraxılan birinci zəruri şeylərin fəhlələrə paylanmasında fəhlələr nə qədər müşkülata düçar olduqlarını dəfələrlə sizə xəbər verdiklərinə görə, “Müsavat” firqəsinin fəhlə şöbəsi həqiqəti aşkar etməkdən ötrü işbu suallara cavab verilməsini sizdən xahiş edir:

1) Hansı rayonlarda ərzaq anbarları vardır və kimlər tərəfindən idarə olunur?

2) Ərzaq şeyləri fəhlələr arasında nə qayda ilə təqsim edilir [bölünür]?

3) Mallar nə qiymətlə satılır? Öz qiymətinə və ya xidmətçilər nəfinə [xeyrinə] müəyyən mənfəət ilə?

4) Nə səbəbə düyü yuxarı qiymətə satılır?

* Dərbənd Ərzaq idarəsinin sədri Soljenko, Ərzaq Nəzarətinə müraciət edib Dərbənd əhalisi üçün Dərbənd şəhərinə ərzaq şeyləri aparmaqdan ötrü bir vaqon verilməsini xahiş etmişdir. Ərzaq Nəzarəti, Dəmiryol Nəzarətinə məktub yazıb Dərbənd əhalisi ehtiyacatı üçün Ərzaq Nəzarəti tərəfindən buraxılan malların Dərbəndə aparılmasından ötrü məzkur [adı çəkilən] Soljenkoya bir vaqon verilməsini xahiş etmişdir.

## FƏHLƏ KONFRANSI

Yanvarın 19-da Çurayevin sədarəti [sədrliyi] altında fəhlə konfransı vaqe olmuşdur. 336 nəfər mandatı olan nümayəndə iştirak etmişdir. Konfrans sədri Tiflis fəhlələrinin Bakı fəhlələrini təbrik etdiyi teleqrafı oxuyur, sonra Krasnovodskdan fəhlələrin göndərmiş olduqları mək- tub oxunur. Krasnovodsk fəhlələri hər gün düçar olduqları fəlakəti və həbs olunmaqlarını yazıb, Bakı fəhlələrindən

müavinət [yardım] diləyirlər. Konfrans qərar qoyur ki, müştərək müqavilə [kollektiv müqavilə] komisyonunun məruzəsindən sonra Krasnovodsk fəhlələrinin məktubu növbeyi-müzakirata [müzakirə növbəsinə] keçirilsin.

Sonra, Roxlin müştərək müqavilə komisyonu tərəfindən məruzədə bulunub deyir ki, saziş komisyonun[un] birinci iclasında ancaq böyük neft mədənləri nümayəndələri ilə fəhlə nümayəndələri gəlmişdilər. Bu iclasa nə bəhriyyə [donanma] nəqliyyatı, nə "Zafatema" və nə də Azərbaycan Hökuməti nümayəndəsi gəlməmişdilər. Buna görə fəhlə nümayəndələri izhar etmişlər ki, heç bir xüsusi müzakirat olmaz. Gələn iclasda hamı gəlməlidir. Neft mədənçiləri neft işlərinin qayət ağır bir halda olduğunu fəna bir surətdə təsvir etmiş, ixracat yoxluğunu və borca batdıqlarını qeydlə demişlər ki, neft işlərinin indiki halında Kəsbkarlar İttifaqı [Həmkarlar İttifaqı] komissiyasının təyin etdiyi məvaciblər barəsində heç danışmağa da dəyməz. Çünki bu qərara görə, neftin putuna 4 manat fəhlə muzdu düşür. Halbuki mədənçilər neftin putunu 2 manata, hətta manat yarıma satmağa yalvararaq razıdırlar.

Fəhlə nümayəndələri mədənçilərin bu sözlərininin qismən doğru olduğunu təsdiqlə bərabər, şimdi ingilis komandanlığının neft almaq istədiyini və böylə olarsa nefti böyük mənfəətlə satacaqlarını bəyanla hər iki tərəfin güzəştə getməsini lazım görərək, məsələni qəti surətdə qoymuş və bildirmişlər ki, neft mədənçilərinin bəyanatına görə onlar[ın] fəhləyə təyin etdikləri maaş həddi-əqəll [minimum] 15 və əksər [maksimum] 25 manat qətidir. Ona görə bu barədə heç danışmaq lazım gəlməz.

Mədənçilər məsələni təzədən müzakirə etmək üçün üç gün möhlət istəmişlərdir. Fəhlələr yanvarın 15-inədək möhlət verib məsələnin təxirə düşməməsini tələb etmişlərdir.

İkinci iclasda (15 yanvar) məlum olmuşdur ki, mədənçilərin fövqəladə iclası qəti bir qərara gəlməmiş və bu məsələnin həlli üçün Hökumətə müraciət etməyi təhti-qərara almışlardır. Fəhlələr bəyan etmişlər ki, əgər həddi-əqəll olmaq üzrə 15 manatı da mədənçilər qəbul etməyirlər, o halda tətildən başqa çarə qalmayacaq və 1905-inci ildə vüqu bulmuş olan təcavüzlər kimi hərəkətlərin qabağını almaq mümkün olmayacaqdır.

Üçüncü iclas yanvarın 18-ində polkovnik Braun[un] iştirakı ilə vaqe olmuşdur. Braun bəhriyyə nəqliyyatı fəhlələri ilə sazişə girmək ümidini izharla demişdir ki, kooperatif açılması və fəhlələr halının təmin edilməsi üçün böyük məbləğ təxsis edilmişdir [ayrılmışdır]. Buna cavab olaraq fəhlə nümayəndələri demişlər ki, müzakirat davam edə bilər. Lakin şərait [şərtlər] burada bir yerdə imza edilməlidir.

Roxlin məruzəsini bitirdikdən sonra verilən suallara cavab olaraq demişdir ki, məvaciblərin artırılması müvəqqət olmayıb həmişəlikdir. Bu artırılan miqdarın nə vaxt qaldırılacağı tərəfeyn [iki tərəf] arasında aşkar edilməmişdir. 1914-1915-inci illərdə külfətli fəhlələr 25% idi. Lakin subay olan fəhlələr (İran fəhlələri) indi olmadığından, hal-hazırda ətraf kəndlilər işləyirlər. Odur ki, indi təqribən fəhlələrin 90%-i külfətdardırlar [külfət sahibi, ailə sahibidirlər].

Roxlin məruzəsinə əlavə olaraq deyir ki, fəhlələrin subay və külfətliyə ayrılmaları, əsası xələldar edir [pozur]. Bunun üçün də Bakı fəhlələri uzun müddət mübarizədə bulunmuşlardır. Məvaciblərə əlavə olunan məbləğin nə vaxta qədər olması məsələsi hələ həll edilməmişdir. Buna görə də konfransın bu barədə təsdiqi lazımdır. Komitə lazım bilir ki, fəhlələr məhəllində [yerində] müzakirat işlərindən aşina olsunlar. Ancaq bundan sonra məsuliyyətli qərar qəbul etmək olar. O müddətə qədər də komissiya neftin qiymətinin artırılacağını və qeyri məsələləri aşkar edər.

Məsai [Əmək] nazirinin ərzaq işlərinin yüngülləşdirilməsi haqqındakı bəyanatına gəldikdə, əlbəttə bir şeyə nail olmaq olar. Sonra maryaklar [dənizçilər] və dəmiryol fəhlələri nümayəndələri birər məvacib rəqəmləri təqdim etmişlərdir. Frolov 8 oktyabr qanunu məsələsindən mübahisə [bəhs] edib deyir ki, sentyabr hadisələri vaxtlı-vaxtında iş başlamağa imkan verməmişdir. Buna görə konfrans komissiya tərəfindən hazırlanan bu aşağıdakı qətnaməni qəbul etməlidir:

1) Sentyabr hadisələri zamanında Bakıdan gedib dekabrın 8-inə qədər işə qayıtmayan əmələ və xidmətçilər və oktyabrın 8-indən Azərbaycan Hökumətinin qərarı ilə qəbul edilməyib işdən kənar edilənlər öz xidmətlərinə qəbul olunmalıdırlar.

Qeyd 1. İndiyə qədər hesab almayan əmələ və xidmətçilərə firmalar dekabrın 8-inə qədər işləmədikləri günlərin hesabını bütün verməlidirlər.

Qeyd 2. Oktyabrın 8-ində verilən qanuna görə, hesab alıb başqa firmalara daxil olanlar dekabrın 8-indən artıq olmamaq şərtilə boş olduqları günlərin hesabını almalıdırlar.

Qeyd 3. Firmada iş olmadığına görə xidmətə qəbul edilməyən əmələlər və firmadan hesab alanlar firma tərəfindən xidmətdən kənar edilmiş hesab olmalıdırlar.

Qeyd 4. Dekabrın 8-inə qədər işə qayıtmayan əmələlər, kənar edilmiş hesab olub, dekabrın 8-inə qədər hesab almalıdır.

Qeyd 5. Mart hadisatından [hadisələrindən] gedən fəhlələr getdikləri gündən kənar hesab edilməlidirlər. İyunun 1-ində qayıdanlar isə xidmətə qəbul edilib iyunun 1-inə qədər hesab almalıdırlar.

2) Bu maddələrdə göstərilən hamı əmələ və xidmətçilər kənar edildikləri zaman, müştərək müqavilə qərarınca hesab almalıdırlar.

3) Bakını türklərdən mühafizə etməkdən ötrü əsgərliyə dəvət edilmiş və könüllü getmiş olan əmələ və xidmətçilər xidmətə qəbul edilib və ya işə gəldikləri günə qədər qulluqdan kənar edilmiş hesab olunmalıdırlar. Bu qanun Türkiyə ordusu cərgəsində Bakı əleyhinə əsgərliyə dəvət edilmiş və ya könüllü getmiş olanlara da şamildir.

4) Avqust ayında verilmiş avansı məvaciblərdən çıxmamalıdırlar. Çıxılmış olsa da, qaytarmalı və indiyə qədər almayanlara verməlidir.

Sonra Roxlin fəhlələrin subay və külfiyətliyə təqsim edilməsindən bəhslə deyir ki, zavod komitələri məhəllində [yerində] bu barədə məlumat cəm edə bilərlər. İki təklif səsə qoyulur; biri məsələnin məhəllində və digəri burada həll

edilməsidir. Əksəriyyətlə birinci təklif qəbul olunur. Bu məsələ çaharşənbə [çərşənbə] günü səhər saat 10-da konfrans iclasında həll edilməlidir.

Roxlin komissiyaya iki müsəlman dəvət olunması təklifində bulunur. İbrahim Əbilov ilə Qarayev komisiyyaya intixab olunurlar [seçilirlər]. İclas axşam saat 9-da qapanır. Gələn iclas çaharşənbə günü səhər saat 10-a təyin edilir.

## AZƏRBAYCANDA

**Qarabulaq əhalisinin ricası**

Qarabulaqdan (Qaryagindən) Parlaman sədri naminə bu məzmunda bir teleqraf göndərilmişdir:

*"Dünən, yanvarın 16-sında Gəncə valisi bütün idarələri Qaryagindən Cəbrayıla köçürmək istəyirdi. Bu mahal mərkəzləri Qaryaginə köçməmişdən, yəni 1905-inci ildə qubernator Qaryagin əhalisini vadar eyləmişdi ki, gərək məmurlar və gərək idarələr üçün münasib mənzillər inşa edilsin. Bundan əlavə, xəzinə [tərəfindən] Qaryagində həbsxana və mahal idarəsi inşa edilmişdir ki, təbii buna da külli məbləğ sərf edilmişdir. Bütün idarələrin Cəbrayıla köçürülməsi ilə bu imarətlər boş qalacaq, bu isə əhalinin pərişanlığına səbəb olacaqdır.*

*Qaryagin kəndi sərhədin 20-25 verstliyindədir. Bunların qarşısında İranın ən dəhşətli quldurları olurlar ki, onlar da Şahsevən-Xocabəyli, Hacı Xocalı, Kənəkli qəbilələrindəndir. Bunların hücumunu ancaq Qaryagində olan idarələr saxlaya bilər.*

*Cəbrayıl qəsəbəsi isə bu yerlərin yüz verstliyindədir. Oradan əcələ ilə camaatı quldurlar bəlasından xilas etmək imkan xaricindədir. Şuşa şəhərindən sonra Qaryagin kəndi yalnız mahalda deyil, bütün İranla sərhəd boyunda birinci mədəni mərkəzdir.*

*Yuxarıda yazılan mətləblər və camaatın mənafeyi-ümumiyyəsinə görə rica edirəm ki, mərkəzin Qaryagindən Cəbrayıla köçürülməsi barəsində olan Gəncə qubernatorunun əmrini ləğv etdirəsiniz. Təvəqqe ediriz, əcələtən [təcili] əmr verəsiniz! Zira Gəncə valisi yanvarın 22-sinədək möhlət vermişdir.*

*İki uçastok nümayəndələri*
*Axundzadə, Nəcəf bəy Hacıyev və*
*Tağıyev"*

**Şuşada məişət**

*(Xüsusi müxbirimizdən)*

Yanvarın 19-da Şuşadan gəlmiş olan bir nəfərin rəvayətinə görə, Yevlax-Şuşa şose yolu tamamilə xətrəsizdir. Yevlaxdan Şuşayadək fayton 1000 manat pul alır. Şuşada həyat tamamilə sakitdir. Əhali puldan ötrü böyük müşkülat çəkir. Bakı və Zaqafqaziya bonları ümumi pulu kimi işləyir və camaat kamali-meyl və həvəslə alır. Şuşada qar yağırsa da, fəqət havası Bakıdan istidir. Hər gün Şuşada 10-dan 12-yədək ölənlər olur. 7 min nəfər erməni fərarilərindən [qaçqınlarından] ancaq 3 mini salamat qalmışdır. Bazarda camaat ev əşyalarını satır, fəqət pul olmadığından xahanı [almaq istəyən] az olur. Arpa çörəyin[in] girvənkəsi 1 manat 40 qəpik, buğda 2 manat, ət 3 manat yarım, mal əti 2 manat yarım, çay və qənd Bakı qiymətinədir. Yağ 22 manat, cövhərin [kerosinin] girvənkəsi 2 manat

20 qəpik, əvvəl 5 manat, hətta bundan neçə vaxt əvvəl 10 manat idi. Poçta-teleqraf müxabirəsi [rabitəsi] olmadığından pul qıtlığı müşahidə edilir. Gərək Şuşada və gərək ətrafda olsun, ermənilərlə müsəlmanların arası düzəlir.

**Andranikin əmri**

Vərəndə, Dizaq, Xaçın və Cavanşir baş komandanlarına, ümum komissarlara və erməni əhalisinə:

*"Bu əmrnamə sizə vüsul olan [çatan] kimi tatarlar və türklər müqabilinə dava hərəkatını bilatəxir [dərhal] yatırasınız. Müttəfiqlər bizdən tələb edirlər bilatəxir dava hərəkatını yatıraq. Müttəfiqlər nümayəndələri ingilis və fransız kapitanları mənim yanıma gələrək bəyan etmişlər, bundan böylə Qafqaziyada müharibəyə məhəl [yer, imkan] verməmək təhti-qərara alınmışdır. Türk qoşunları bilatəxir getməlidirlər. Bakı və Batum ingilislər əlindədir. İngilislər Tiflisə hərəkət edirlər ki, ümum məsələlər Sülh Konfransında həll edilməlidirlər. Müttəfiqlər nümayəndələrinin mənə verdikləri bir məktubda baş komandan ingilis generalı Tomson məni xəbərdar edir ki, bundan sonra hər dürlü düşmənanə hərəkat erməni məsələsinin həllinə zərər yetirər."*

*İmza etdi:*
*general-mayor Andranik*
*Surətinin mətni ilə düz olduğunu təsdiq ediriz*
*(imzalar: Şuşa yeparxiya naçalniki yepiskop Vağan)*
*Şuşa bələdiyyə rəisi Gerasim Məlik-Şahnazaryan*
*Əmrnamə noyabrın 19-da göndərilmişdir.*

**Muğan barəsində**

Xəbər verildiyinə görə, Muğan müqəddəratı, xüsusən onun şimal cəhəti Müttəfiqlər komandanlığını çox düşündürür. Komandanlıq Muğan əhvalının həqiqətini bilmək istəyirlər. Ona görə də bu günlərdə ingilis komandanlığı tərəfindən oraya bir heyət göndəriləcəkdir. Bu heyət Muğan əhvalına lazımınca bələd olduqdan sonra, rus kəndçilərinin oraya övdət etmək [qayıtmaq] məsələsini həll edəcəkdirlər.

## GÜRCÜSTANDA

**Gürcüstan Parlamanında**

Gürcüstan Parlamanının yanvarın 17-də vaqe olan iclasında Xariciyyə naziri Gegeçkori İstanbul təriqi [yolu] ilə Londondan alınmış teleqrafı oxumuşdur:

*"Sülh Konfransında gürcü heyəti-müraxxəsəsinə [nümayəndə heyətinə] yer verilməsi haqqında Gürcüstan Xariciyyə nazirinin teleqrafına cavab olaraq İstanbul təriqi ilə məzkur [adı çəkilən] heyətin əziməti [yola düşməsi] təmin ediləcəkdir. İngiltərə hökuməti arzu edir aşkar olsun ki, Gürcüstan nümayəndələri Fransa hökumətinə təqdim ediləcəklərdir. Heyəti-müraxxəsəyə yer verilməsi haqqında bir söz demək olmaz. Çünki təzə təşkil edilən hökumətlərdən kimin Sülh Konfransına buraxılması Sülh Konfransının qərarından asılıdır. İngiltərə hökuməti təzə Gürcüstan Cümhuriyyəti təşkil edilməsinə hüsn-təvəccöh göstərib Gürcüstan nümayəndələrinin Sülh Konfransında iştirak etmələrini ciddi surətdə müdafiə etməklə bərabər, məzkur nümayəndələrin*

*sözlərinə qulaq asılması istidasında [xahişində] bulunmağa dəxi hazırdır."* (Ümumi alqış)

Bu telqraf oxunduqdan sonra Parlaman sədri Parlaman namindən İngiltərə heyətinə bəyani-təşəkkür edilməsi təklifində bulunur. Bu təklif qəbul olunur. Sonra Xalq Səhiyyə Komissiyası namindən Apakeliya dövlət darülfünunu [universiteti] nəzdində 6 şöbədən ibarət Səhiyyə İnstitutu açılması qanun layihəsini oxuyur. Layihə, smetası ilə bərabər qəbul olunur.

Bundan sonra Nikidze Torpaq Komisiyyası namindən hökumət torpaqlarının camaat ixtiyarına verilməsi layihəsini oxuyur. İşbu layihənin ümdə maddələri budur:

Mühacirlər köçürməkdən və koloniya salmaqdan ötrü Ziraət [Kənd Təsərrüfatı] naziri ixtiyarında olan yerlərdən başqa qalan hökumət yerləri camaata verilir. Bu yerlər də ancaq tək bir dolanacağı yerə münhəsir [bağlı] olan torpağı az kəndlilərə veriləcəkdir. Otlaq yerləri kəndlərə ümumi mal olmaq üzrə verilir. Əkin yerləri kəndlilərin mali-məxsusu [xüsusi malı] olacaqdır. Böylə yerlərin miqdarı yerlər zəbt edildiyi zamandakı miqdardan artıq olmamalıdır. Mali-məxsus olmaq üzrə verilən yerlər əvəzində müəyyən qiymət alınacaqdır. Bu pullar da yerləri qurutmaq və suvarmaq üçün və torpaq qanunu tətbiq etməklə əlaqədar olan məxariclərə [xərclərə], həmçinin torpaq banklarının borcunu əda etməyə [ödəməyə] və torpaq fondu təşkilinə sərf ediləcəkdir. Yerlərin qiymətini də Ziraət naziri, uyezd zemstvoları [qəzalardakı yerli özünüidarə qurumları] ilə bərabər təyin edir. Şəhər yaxınlığında olan yerlər həmçinin məzənnəyə görə satılacaqdır.

Sonra məruzəçi deyir ki, gələcəkdə iqtisadi qüvvələrin artması bunu isbat etdi ki, yerlərin mali-məxsus olması əsasını qəbul etmək lazımdır. Hazırdakı şərait mövcibincə [şərtlərə əsasən] torpaqdan mənfəətbərdar olmaq üçün başqa formalar kənd fəllahət [kənd təsərrüfatı] işləri tərəqqisini mümaniətə [maneəyə] düçar edir. Bu təsəvvürata görə komissiya, yerlərin xüsusi mal olması əsasını təsvib [təsdiq] etmişdir. Fəqət bir para yerlər, o cümlədən məhsulatlı mülklər, meşələr, otlaqlar və torpaq fondu hökumətin mali-məxsusu olur. Yerlərin qiyməti alınması da müsbət surətdə həll edilmişdir.

## İANƏ

İdarəmizə xəstə türk əsgərləri nəfinə [xeyrinə] ianə vüsul olmuşdur [çatmışdır]:

Üzeyir bəy Hacıbəylidən 50 manat;

Abidin Mirqasımzadədən 50 manat;

Əlihəsən Cabbarzadədən 200 manat;

Seyidəli Əzimzadə vasitəsilə 7 nəfər türk dərzilərindən cəm olmuş 516 manat;

Mehmanovdan 50 manat;

Cəmi 866 manat.

Sabiqdəki 250 manat;

Yekun 1116 manat.

1116 manat cənab Ağaməhəmməd İbrahimzadəyə idarəmiz tərəfindən təhvil verilmişdir.

Kovitskinin mənzilində cəm olan məzkur [adı çəkilən] Kovitskdən təbib Gindesin həvaləsinə 177 manat.

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Doktor**
**Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

*2603*

Olqinski küçədə Ekspress sineması altında yeni **Çanaqqala** qəhvəxanası açılmışdır.

*2650*

**Elan**

Azərbaycan Dəmiryolları müdiri T. Məlikaslanov əmri ilə bu kanuni-saninin [yanvarın] 17-sindən yerli əhalidən texnik kantorçusu, növbətçilik, mövqif [stansiya] müdiri və müavini, teleqrafçı hazırlamaq üçün xüsusi məktəb açılmışdır. Ərizə verib qəbul edilən əşxas [şəxslər] kanuni-saninin 17-sində, gündüz saat 12-də Romanov və Budaqov küçələri küncündə, Dadaşovun mülkündəki məktəbdə hazır olmalıdırlar.

*T-15*

**Hökumət mətbəəsi**

1919-cu il üçün yanvarın 25-i radələrində yeni və əski üsul ilə türk və rus dillərində divar təqvimi buraxacaqdır. Qiymət tək satışda 8 manat, külli surətdə alanlara 60 prosent güzəşt edilir.

Mağazaçılara və külli surətdə alanlara elan ediriz ki, Hökumət mətbəəsi hər cür məktəb dəftərləri münasib qiymətə satışa buraxacaqdır.

Adres: Bakı, Birjevaya küçədə, Skobelevin evində, nömrə 17.

*T-13*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

**İnna lillahi və inna ileyhi raciun**

səh. 359. "...rəbiülaxir ayının 18-ində...": miladi təqvimlə 21 yanvar 1919-cu ilə uyğundur.

**Qismi-rəsmi**

səh. 360. "...həmin 1919 sənəsi yanvarın 18-dən etibarən...": qəzetdə belə getmişdir: "...həmin yanvarın 18-dən etibarən 1919 sənəsi..."

**Əmələ məsələsi**

səh. 361. "M. Ə.": "Azərbaycan" qəzetində bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

**Şəmkir şühədasını xatırlayalım**

səh. 362. "knyaz Abxazinin": digər mənbələrdə "knyaz Abxazava" kimi qeyd edilir.

səh. 363. "Rəhmətullahi əleyhim rəhmətən vasia!": Allah onlara çoxlu-çoxlu rəhmət eləsin!

səh. 364. "Usmiyev": Bu familiya, rus əlifbasındakı "ц" hərfinin "ts" ilə ifadə edilməsi səbəbindən, qəzetdə "Utsmiyev" kimi getmişdir. Usmiyevlər kumık əsillidir. Usmiyevlərin ən tanınmışları rus ordusunun general-mayoru knyaz Musa Usmiyev (?-1843), onun oğlu, rus ordusunun general-mayoru, eyni zamanda Xurşidbanu Natəvanın əri olan Xasay xan Usmiyev (1808-1867) və Xasay xan Usmiyevlə Xurşidbanu Natəvanın oğlu olan Mehdiqulu xan Usmiyevdir (1855-1900).

səh. 365. "yayi-nisbi": mənsubiyyət ifadə edən "i" (məsələn: Lənkərani, yəni Lənkəranlı, Lənkərana mənsub olan) ərəb əlifbasında "ya" (y) hərfi ilə yazılır.

**Qəzetələrdən**

səh. 367. "xanım Yakovlev": burada söhbət, Petroqradda Ümumrusiya Əksinqilab və Sabotajla Mübarizə Fövqəladə Komissiyasında rəhbər vəzifələr tutan Varvara Yakovlevadan gedir.

səh. 368. "sipahi": İngilislərin müstəmləkə Hindistanında yerli əhalidən yığdıqları muzdlu əsgər.

"Supsa mövqifində": qəzetdə səhvən "Supa mövqifində" getmişdir.

**Fəhlə Konfransı**

səh. 371. "Zafatema": "Zavod, fabrik və texniki emalatxana sahibləri ittifaqı" [Союз заводчиков, фабрикантов и владельцев технических мастерских].

"Braun bəhriyyə nəqliyyatı fəhlələri ilə sazişə girmək ümidini izharla demişdir ki...": qəzetdə belə getmişdir: "Braun demişdir ki, bəhriyyə nəqliyyatı fəhlələri ilə sazişə girmək ümidini izharla demişdir ki..."

**İanə**

səh. 375. "...təbib Gindesin...": qəzetdə səhvən "...təbib kəndisinin..." kimi getmişdir. Halbuki burada söhbət həkim və ictimai xadim, bir müddət Azərbaycan Cümhuriyyətinin Səhiyyə naziri vəzifəsini tutan Yevsey Gindesdən gedir.